SİYASƏT

# 'QHT işi' üzrə təqsirləndirilən Nərgiz Muxtarovaya şərti cəza verilib

3 saat öncə




Nərgiz Muxtarova

Qeyri-hökumət təşkilatları (QHT) ilə bağlı cinayət işi üzrə təqsirləndirilən qadın hüquqları müdafiəçisi **Nərgiz Muxtarova**ya 3 il sınaq müddəti təyin edilməklə, 7 il 6 ay şərti cəza verilib.

İyulun 8-də Bakı Ağır Cinayətlər Məhkəməsində ona hökm oxunub.

Hakim Leyla Əsgərova-Məmmədovanın sədrlik etdiyi hakimlər kollegiyasının çıxardığı hökmə əsasən, N.Muxtarova Cinayət Məcəlləsinin (CM) 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə təqsirli bilinib.

İstintaq vaxtı ona CM-in 313-cü (vəzifə saxtakarlığı) maddəsi ilə də ittiham verilmişdi; məhkəmə bu ittihama xitam verib.

Cinayət işinin materiallarında iddia olunur ki, N.Muxtarova digərləri ilə əlbir olaraq ABŞ-də yerləşən donor təşkilatlardan ümumilikdə 150 min manatdan çox vəsait əldə edib və leqallaşdırıb.

N.Muxtarova isə məhkəmədəki ifadəsində bildirib ki, "Beynəlxalq Bank"da açılmış hesabına qanuni şəkildə ABŞ Dövlət Departamentindən alınmış vəsait daxil olub və burada hər hansı cinayət yolu ilə əldə edilmiş puldan yaxud leqallaşdırmadan söhbət gedə bilməz.

Habelə, hökmdən öncə məhkəmədə son sözünü deyən N.Muxtarova, ümumiyyətlə, heç bir ittiham üzrə özünü təqsirli bilmədiyini vurğulayıb: **"Mən heç bir cinayət törətməmişəm. Hüquq təhsili olan və olmayan hər kəs bilir ki, bu işdə cinayət tərkibi yoxdur".**

Ardınca müşavirəyə gedən hakimlər cəmi bir neçə dəqiqə sonra geri qayıdaraq hökmü elan ediblər.

Prokuror isə N.Muxtarovaya 4 il sınaq müddəti olmaqla, 8 il şərti cəza verilməsini təklif etmişdi.

N.Muxtarova AzadlıqRadiosunun həbsdə olan jurnalisti **Fərid Mehralızadə**nin həyat yoldaşıdır; onların ikiyaşlı qızı var və bu uşaq atasının həbsindən bir neçə ay sonra doğulub. N.Muxtarova barəsində "polis nəzarəti altına vermə" qətimkan tədbiri seçilmişdi.

Onun əri isə "AbzasMedia işi" üzrə həbs edilib. O işdə qaçaqmalçılıq və başqa qanunsuz əməllərdə təqsirləndirilən yeddi jurnalistə 7 il 6 aydan 9 ilədək həbs cəzası verilib. AzadlıqRadiosunun jurnalisti F.Mehralızadə isə 9 il müddətinə azadlıqdan məhrum edilib. O, ittihamı qurama sayır.




12 mart

## Nərgiz Muxtarova: 'Qrup halında cinayətdə ittiham olunuramsa, digərləri kimlərdir?'

Yerli və beynəlxalq qeyri-hökumət təşkilatları (QHT) ilə bağlı cinayət işi üzrə təqsirləndirilən vətəndaş cəmiyyəti təmsilçilərindən **Nərgiz Muxtarova** deyir ki, bir qrup şəxslə əlbir olub cinayət törətməkdə suçlanır. Amma o qeyri-müəyyən qrupun kimlərdən ibarət olduğu bilinmir.

Qadın hüquqları müdafiəçisi N.Muxtarova bu barədə martın 11-də öz məhkəməsində ifadə verərkən danışıb. Onun işinə Bakı Ağır Cinayətlər Məhkəməsində Leyla Əsgərova-Məmmədovanın sədrlik etdiyi hakimlər kollegiyası baxır.

N.Muxtarova bildirib ki, əri – AzadlıqRadiosunun həbsdə olan jurnalisti **Fərid Mehralızadə** ilə bağlı hökmdən sonra ölkədəki məhkəmə sisteminə inamsızlığına görə ifadə vermək istəmirdi: **"Amma sonra düşündüm ki, bəzi həqiqətləri yüksək səslə demək lazımdır".**

O vurğulayıb ki, heç vaxt qrant almayıb, qrant müqaviləsinə imza atmayıb. Sadəcə, xidməti müqavilə əsasında müəyyən işlər görüb və bunun müqabilində pul alıb. Bunlar da gender bərabərliyi, qadın hüquqları ilə bağlı dörd kitabın tədqiqatı, üç verilişin hazırlanmasından ibarət işlər olub. N.Muxtarova deyir ki, xidməti müqavilələr əsasında aldığı vəsaitlər onun bank hesabına köçürülüb, bunların da vergisi ödənilib, bəyannaməsi verilib: **"Mən heç bir cinayət törətməmişəm, fəaliyyətimdə bütün işlərim qanuni olub. Bunun sübutlarını – sənədlərini də prokurorluğa təqdim etmişəm".**

Əlavə edib ki, hətta qrant alsaydı belə, bu əməldə cinayət tərkibi yoxdur. Qrant müqaviləsinin qeydə alınmaması uzağı inzibati xətadır.

## "Belə çıxır, Dövlət Departamenti bu pulu cinayət yoluyla əldə edib"

N.Muxtarova vurğulayıb ki, ona qarşı irəli sürülən ittihamlardan biri cinayət yoluyla əldə edilən vəsaitlərin leqallaşdırılmasıdır. "Mercy Corps" təşkilatı ilə müqavilə bağlayıb işlədiyini deyən Muxtarovanın sözlərinə görə, alınan vəsaitlərin mənbəyi ABŞ Dövlət Departamenti olub: **"Onda belə çıxır ki, Dövlət Departamenti hansısa cinayət törədərək bu pulu əldə edib".**

N.Muxtarova ona verilmiş "bir qrup şəxslə əlbir olub cinayət törətməsi" barədə ittihama da toxunub. Deyib ki, onunla əlbirlikdə ittiham olunan digərlərinin kimliyi məlum deyil: **"Mən qrup halında cinayət törətməkdə ittiham olunuramsa, mənim xəyali qrup üzvlərim kimdir?".**

N.Muxtarovaya qarşı ittihamda Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyətinin sədri **Şəhla İsmayıl**ın da adı yer alıb. Onun adı QHT-lərlə bağlı cinayət işində təqsirləndirilən şəxs kimi göstərilsə də, N.Muxtarova bildirib ki, o təqsirləndirilən şəxs deyil. Bu da ittiham aktının qanunsuzluğunu bir daha sübut edir.

N.Muxtarovanın məhkəməsi aprelin 8-də davam edəcək..




## Xatırlatma

"QHT işi" üzrə təqsirləndirilən vətəndaş cəmiyyəti fəallarına Cinayət Məcəlləsinin 193-1.2.2, 193-1.2.3, 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı vəzifə səlahiyyətlərindən istifadə etməklə təkrar leqallaşdırma), 308.1 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham verilib. Bu maddələrdə 12 ilədək həbs cəzası nəzərdə tutulub.

"QHT işi" üzrə toplam 15-ə yaxın vətəndaş cəmiyyəti təmsilçisi cinayət məsuliyyətinə cəlb olunub. Onlardan "Vətəndaş Hüquqları İnstitutu" İctimai Birliyinin rəhbəri **Bəşir Süleymanlı**, Seçki Müşahidə Alyansının icraçı direktoru **Məmməd Alpay (Məmmədzadə)**, ictimai fəal **Asəf Əhmədov**, sosial işçi **Zamin Zəki** və **Əhməd Məmmədzadə** həbs olunub.

Sosial Hüquqlar Mərkəzinin hazırda ölkədən kənarda olan rəhbəri **Sübhan Həsənli** və ictimai fəal **Aytac Ağazadə** haqqında sözügedən cinayət işi üzrə həbsli axtarış qərarı verilib.

Digərləri haqqında isə alternativ qətimkan tədbiri seçilib. Bunların sırasında "Hüquq və İnkişaf" İctimai Birliyinin rəhbəri **Hafiz Həsənov**, ABŞ-nin Alman Marşall Fondunun (GMF) Azərbaycan üzrə məsləhətçisi olmuş **Mehriban Rəhimli** və başqaları var.

Bugünlərdə ictimai fəallar **Aygül Pəncəliyeva** və **Zamin Zəki**nin məhkəməsi yekunlaşıb. Pəncəliyevaya 2 il şərti cəza verilib, Zəki isə 7 il 6 ay azadlıqdan məhrum edilib.

Təqsirləndirilən QHT təmsilçiləri ittihamları qəbul etmirlər, heç bir cinayət törətmədiklərini bildirirlər.

## Buna da bax:

'QHT işi': Zamin Zəkinin cəzası 3 ay azaldıldı

Bəşir Süleymanlı ittihamların əsassız olduğunu deyir: 'Dövlət qurumları da USAID-dən qrant alıb'

Mehriban Rəhimlinin məhkəməsi başladı: 'İstintaq maaşı qrant kimi təqdim edib'

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur